N.Dağların verdiyi məlumata görə, seminar MSŞT üzrə çoxtərəfli qrupların prosesin inkişaf etdirilməsində və yaranan problemlərin həllindəki rolu, kommunikasiya imkanlarının genişləndirilməsi, Təşəbbüsün daha geniş dairələrə çatdırılması məqsədilə informasiya siyasətinin təkmilləşdirilməsi, MSŞT hesabatları, onların yeni standartlara uyğunlaşdırılması və MSŞT-nin gələcəyi: çətinliklər və gözləntilər kimi mövzuları əhatə edib.

Tədbir zamanı İ.Hüseynli Azərbaycanda MSŞT üzrə Çoxtərəfli Qrupun yaranması prosesi, qrupun fəaliyyəti və hazırda diqqət yönəltdiyi məsələlərdən danışıb. Nicat Dağlar Azərbaycanda MSŞT-nin tarixi, prosesin gedişatı, Koalisiyanın yaranma tarixçəsi, həyata keçirdiyi tədbirlər və mövcud problemləri əhatə edən təqdimatla çıxış edib. Əsas diqqət isə fərdi hesabatlığa keçid prosesində müşahidə olunan çətinliklərə və Memorandumun təkmilləşdirilməsinin zəruriliyinə yönəldilib. Azərbaycan nümayəndlərinin növbəti təqdimatı isə Koalisiyanın informasiya siyasətinə dair olub. Kifayət qədər maraqla qarşılanan təqdimatların ardınca tədbir iştirakçılarının və təşkilatçıların çoxsaylı sualları cavablandırılıb.

Sentyabrın 26-da seminar iştirakçılarının şərəfinə düzənlənmiş ziyafətdə Almaniyanın İqtisadi Əməkdaşlıq və İnkişaf Hazirliyinin MSŞT üzrə məsul şəxsi xanım Qabriyel Zöller də iştirak edib. O öz çıxışında MSŞT-nin əhəmiyyətindən danışıb və qeyd edib ki, Almaniya hökuməti bundan sonra da prosesə dəstək verəcək. Sentyabrın 27-də seminar iştirakçıları Köldəki kömür mədənində olublar. Qonaqlar oradakı iş prosesilə yaxından tanış olub, mədənin fəaliyyəti barədə təqdimatları dinləyiblər.

Seminarın sonunda iştirakçılara xüsusi sertifikatlar təqdim olunub.



## Next workshop on Transparency Initiative organized in Koln

**On September 24-28, the next workshop was organized in Küln, Germany on Extractive Industries Transparency Initiative (EITI). Being supported by EITI International Secretariat and the World Bank, it was organized by German Agency for International Cooperation (GIZ). In line with the full-fledged and associate countries of EITI, the event was attended by the representatives of Azerbaijan NGO Coalition – member of Multi-stakeholder Group, Ilham Huseinly and coalition board member, Nijat Daglar.**

According to Nijat Daglar, the workshop covered the topics, such as the role of multi-stakeholder groups in process development and resolution of arising challenges, expanding the communication opportunities, improvement of information policy for expanding the initiative to wider circles, EITI reports, conforming them to new standards and future of EITI: challenges and expectations.

At the event, I.Huseinly spoke of the development process of MG in Azerbaijan, activity of the group and matters concentrated currently. Nijat Daglar made a speech on EITI history in Azerbaijan, progress of the process, history of coalition, its events and existing challenges. The main focus was given to the challenges observed with the transition to the individual accountability and necessity of improving the memorandum. The next presentation of the Azerbaijani representatives was about the information policy of coalition. Following very interesting presentations, the numerous questions of the event participants and organizers were answered.

The dinner-party organized for workshop participants on September 26 was attended by Ms.Gabriel Züller, responsible person of Ministry of Economic Cooperation and Development of Germany on EITI too. She spoke of the importance of EITI and noted that German government would provide its support to the process. On September 27, the workshop participants visited coal mine in Küln. Guests became closely familiar with the working process there and listened the presentations on the mine activities.

At the end, the participants were awarded with certificates.

## Burkina-Faso hasilat sənayesindən gəlirlərə dair ikinci hesabatını açıqlayıb



Burkina-Faso Mədən Sənayesində Şəffaflıq Beynəlxalq Təşəbbüsünün icrası çərçivəsində ikinci hesabatını açıqlayıb. 2010-cu ildə ölkənin qızıl, marqanes və digər faydalı qazıntılardan əldə olunan gəlirlərini əhatə edən hesabatda birincidəkindən iki dəfədən də çox vəsait açıqlanıb. Hesabata görə, 2010-cu ildə Burkina-Faso dağ-mədən sektorundan 47 milyon dollar əldə edib. Bu, ölkənin Ümumi Daxili Məhsulunun 0,7 faizi, 2010-cu ildəki dövlət gəlirlərinin isə 2,6 faizidir.

Qeyd edək ki, Burkina-Fasoda hesabatlar dağ-mədən sektorunda çalışan 74 şirkət tərəfindən fərdi qaydada açıqlanıb. Hökumət və şirkətlərin hesabatlarını Moore Stephens auditor şirkəti tutuşdurub.

## Burkino-Faso published its second report on its revenues from extractive industry

Burkino-Faso published its second report within Extractive Industry Transparency Initiative. The given report has publicized twice more incomes than the first report which was pusblihed in 2010 on gold, manganese and other minerals.

According to the report, Burkino-Fase gained 47 million US dollars from mining sector in 2010. This makes 0,7% of the gross domestic product of the country, 2,6% of the national revenues in 2010.

Let's note that the reports in Burkino-Faso have been publicized by 74 companies in extractive industries. The reports of the government and companies have been comparatively audited by Moore Stephens company.

# Solomon adaları "namizəd ölkə" statusu alıb

**Sakit okeanın cənubunda yerləşən Solomon adaları ada dövləti Mədən Sənayesində Şəffaflıq Beynəlxalq Təşəbbüsünün(MSŞT) icrasına qəbul edilərək "namizəd ölkə" statusu alıb. Bu barədə qərarı MSŞT İdarə Heyəti qəbul edib.**

Qərara görə, Solomon adaları yaxın iki il yarım ərzində malik olduğu dağ-mədən(əsasən qızıl hasilatı) sənayesindən daxilolmaları açıqlamalı, tamhüquqlu ölkə statusu almaq üçün zəruri olan digər addımları atmalıdır.

Qeyd edək ki, Solomon adalarının iqtisadiyyatı təbii sərvətlərin ixracından yüksək asılılıq vəziyyətindədir. Neçə illərdir bu ölkədə mis, qızıl, sink, nikel və digər təbii sərvətlərin hasilatı aparılsa da, daxili qarşıdurmalar və vətəndaş müharibələri üzündən iqtisadiyyatın inkişafı ləngiyir.

# Solomon Islands obtained "candidate country" status

**Solomon Islands, which are located on the south of the Pacific Ocean, assuming the implementation of Extractive Industries Transparency Initiative (EITI) obtained "candidate country" status.**

Reportedly, Solomon Islands should publicize their receipts from extractive industry in recent two year and should undertake the required further steps to gain full membership status.

By the way, the economy of Solomon Islands has high dependancy on export of natural resources. Despite the fact that the country mines copper, gold, zinc, nickel and other minerals, the in-country clashes and civic wars hinder the economic growth of the country.




# Əfqanıstan birinci şəffaflıq hesabatını açıqlayıb

**Əfqanıstan Mədən Sənayesində Şəffaflıq Beynəlxalq Təşəbbüsü çərçivəsində ilk tarixi hesabatını açıqlayıb. Hicri tarixi ilə 1387-1388-ci illəri (21 mart 2008-20 mart 2010-cu illər) əhatə edən hesabatda Əfqanıstanın hasilat sektorunda çalışan 5 şirkət iştirak edib.**




Hesabatdan aydın olur ki, 2008-ci ildə ölkənin bu sektordan əldə etdiyi gəlirlərin 90 faizə qədərini Aynakda mis istehsalı ilə bağlı bir müqavilə üzrə ödənilənbonus təşkil edib.

Hasilat sektorunda imzalanan iri müqavilələr üzrə gəlirlərin yaxın illərdə nəzərəçarpacaq səviyyədə artacağı gözlənilir. Eyni zamanda yaxın vaxtlarda Əfqanıstanın 21 mart 2010-20 mart 2011-ci ili əhatə edəcək ikinci hesabatının açıqlanması nəzərdə tutulur.

MSŞT Beynəlxalq İdarə Heyətinin sədri Kler Şort Əfqanıstanda ilk hesabatın açıqlanmasını yüksək qiymətləndirib: "Əfqanıstanın hasilat sektorunda ölkə iqtisadiyyatının yenidən qurulması üçün ciddi potensial var. Bu potensialı reallaşdırmaq, əldə edilən gəlirlərin bütün əfqanların mənafeyi naminə sərf olunmasını təmin etməkdən ötrü hasilat sektorunda şəffaflığın olması ən vacib şərtdir."

# Afghanistan publishes historic first EITI report

**Afghanistan published its first EITI report. The report covers two years of data - the Solar Hejri calendar years 1387 and 1388 (21 March 2008 – 20 March 2010), which covers 5 companies operating in Afghanistan.**

The reports says that approximately 90 per cent of revenues in 1387 stem from one signature bonus related to the Aynak copper mining project.

It is expected that government revenues will increase substantially in the coming years as several large projects move into production. A second report covering 21 March 2010 – 20 March 2011 is scheduled for publication in September.

EITI Chair Clare Short welcomed the publication of the report: "There is a great deal of interest in the potential for the extractive industries to transform Afghanistan's economy. In order to realize this potential, the revenues from these projects must be well managed to the benefit of all Afghans. The publication of these reports will help increase transparency and accountability".

# Zambiya Şəffaflıq Təşəbbüsünün tamhüquqlu üzvü oldu

**Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü üzrə Beynəlxalq İdarə Heyətinin qərarı ilə Zambiyaya Təşəbbüsün tamhüquqlu üzvü statusu verilib(www.eiti.org ). Beləliklə, Şərqi Afrikadan bu statusu alan ilk ölkə olan Zambiya həm də tamhüquqlu üzv olan 15-ci ölkədir.**

Qeyd edək ki, 1970-ci illərdə Zambiya dünyanın ən iri mis istehsalçılarından biri olub. Onilliklər boyu bu sektora yatırımların azalması, infrastrukturun köhnəlməsi və nəhayət, 1990-cı illərin sonlarında dünya bazarında misin qiymətinin kəskin ucuzlaşması nəticəsində sektor praktiki olaraq dağılmışdı. Lakin son onillikdə əsas istehsal şaxtlarında aparılan bərpa işlərinin aparılması, iqtisadi idarəetmədə baş verən yaxşılaşma irihəcmli xarici investisiyaların bu sahəyə axınına səbəb olub. MSŞT çərçivəsində açıqlanan son hesabata görə, 2009-cu ildə mis hasilatından Zambiya 500 milyon dollardan yuxarı gəlir əldə edib.

Beynəlxalq İdarə Heyətinin sədri Kler Şort Zambiyaya tamhüquqlu üzv statusunun verilməsini müsbət qiymətləndirib: "Zambiya uzun illər boyu is və digər sərvətlərin hasilatından qazanc əldə etməyib. Bu, həm pis idarəçilik, həm də müqavilələrdəki problemlər üzündən baş verib. MSŞT bu problemlərin ardan qaldırılmasına təkan verə biləcək əsas platformadır."

Beynəlxalq İdarə Heyətinin qərarına görə, 2017-ci ilədək Zambiya təkrar validasiyadan keçməli, bu ölkədə açıqlanan hesabatlar ən geci iki il əvvəlin məlumatlarına istinad etməli, ölkə hökuməti MSŞT-nin tətbiqi prosesini əks etdirən illik hesabat dərc etdirməlidir.



# Zambia became full member to EITI

**With the decision of the EITI Board, Zambia was given the full membership status of EITI. Zambia became the 15th EITI compliant country and the first in the East Africa region.**

Zambia was among the top global copper producers in the 1970s. Decades of underinvestment and ageing infrastructure followed and when there was a collapse in the global price of copper in the late 1990s, the sector was nearly ruined. However, major rehabilitation work in many of the mines and improved economic management has attracted large foreign investment over the past decade. The latest EITI report notes that the sector brought in over US$ 500million in revenue to the Zambian government in 2009.

Clare Short, Chair of the International EITI Board welcome the full membership of Zambia:

"Zambia has not benefitted as it should from its plentiful copper and other mineral resources. This has been partly due to poor governance and partly due to ungenerous contracts. EITI compliance is a basic platform that encourages addressing these challenges."

According to the decision of the International EITI Board, Zambia should pass repeat validation by 2017, and the reports published in this country should refer to the data of minimum two years before, and the national government should publish annual report on EITI implementation.

# Neft Fondunun yarım illik gəlir-xərcləri və investisiyaları açıqlanıb

**Cari ilin2012-ci ilin ilk yarısında Dövlət Neft Fondunun büdcə gəlirləri 7 391,9 milyon manat, büdcə xərcləri isə 4 878,1 milyon manat təşkil edib. Fondun icraçı direktoru Şahmar Mövsümovun altı ayın yekunları ilə bağlı verdiyi məlumata görə, gəlirlərin 7 099,8 milyon manatını(o cümlədən mənfəət neftinin və qazın satışından 7 091,4 milyon manat, tranzit gəlirləri 3,8 milyon manat, bonus ödənişləri 1,6 milyon manat, akrhesabı ödənişlər 2,8 milyon manat, xarici sərmayəçilər tərəfindən təhvil verilmiş aktivlərdən 0,2 milyon manat)neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı daxilolmalar təşkil edib. Hesabat dövründə daha 292,1 milyon manat Neft Fondunun vəsaitlərinin idarə olunmasından əldə edilib.**

Xərclərə gəlincə, ilk yarımildə 4 592,3 milyon manat dövlət büdcəsinə transfert edilib. Bundan əlavə, qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 162,5 milyon manat, Samur- Abşeron suvarma sisteminin yenidən qurulmasına 67,0 milyon manat,"Bakı-Tbilisi-Qars yeni dəmir yolu" layihəsinin maliyyələşdirilməsinə 37,0 milyon manat, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə 5,0 milyon manat vəsait ayrılıb. 2012-ci ilin ilk altı ayı ərzində Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri 14,3 milyon manat təşkil edib.Altı ayda valyuta məzənnələrinin dəyişməsindən yaranan fərqlə bağlı Fondun büdcədənkənar xərci 289,2 milyon manat olub.

2012-ci il iyulun 1-nə Fondun aktivləri 2012-ci ilin əvvəlinə (29 800,0 milyon ABŞ dolları) nisbətən 9,6 % artaraq 32 666,0 milyon ABŞ dollarına bərabər olub.

Qeyd edək ki, ölkə prezidentinin 2 iyul 2012-ci il tarixli fərmanı ilə Fondun 2012-ci il büdcəsinə dəyişikliklər edilib. Fərmanla Neft Fondunun 2012-ci il büdcəsində Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlərlə bağlı gəlir maddəsi 10 365 432,0 min manatdan 13 388 644,0 min manata qədər, Neft Fondunun 2012-ci il büdcəsinin gəlirlərinin ümumi həcmi 10 697 030,6 min manatdan 13 721 815,2 min manata qədər artırılıb, neft-qaz sazişlərinin imzalanması və icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslarla bağlı 1 572,6 min manat məbləğində gəlir maddəsi əlavə edilib.



Ş.Mövsümov həmçinin ARDNF-nin hesabat dövründəki investisiya siyasəti barədə də məlumat verib. Bildirib ki, "2012-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı)"na (İnvestisiya siyasəti) əsasən ARDNF-nin vəsaitlərinin bu il üçün qızıla investisiya edilə bilən miqdarı investisiya portfelinin maksimum 5%-i həddində müəyyən olunub. Bu vəsait hesabına təxminən 30 ton qızılın alınması nəzərdə tutulur: "Qiymət dəyişkənliyi riskinin minimuma endirilməsi məqsədilə, alınması nəzərdə tutulan qızılın ümumi miqdarının mərhələli şəkildə (həftələr üzrə) bərabər miqdarda bölüşdürülməklə 2 il müddətində Fondun investisiya portfelinə daxil edilməsi planlaşdırılmışdır. Bu strategiya zamanı Fondun qızıl investisiyalarının iki ilin sonundakı dəyəri bu müddət ərzində təqribən qızılın orta bazar qiymətinə bərabər olacaqdır. Cari ilin fevral ayından etibarən qızılın alışına başlanılıb. Alqı-satqıları həyata keçirmək məqsədi ilə London Qiymətli Metallar Bazarı İştirakçıları Assosasiyasının üzvü olan bir neçə tərəfdaş bankla hesablar açılmış və 1 fevral 2012-ci il tarixindən etibarən həftəlik 25 qızıl külçə (10 000 troya unsiyası) alınır.İyul ayının 1-ə qədər 6 847 kq (220 146 troya unsiya) qızıl investisiya portfelinə daxil edilmişdir.Müvəqqəti saxla-

ma yeri kimi bu sahədəki təcrübələri və saxlama xərcləri nəzərə alınaraq JP Morgan bankının London anbarı seçilmişdir.İlin sonunadək əlavə 240 000 unsiya (təqribən 7,5 ton) qızılın alınması nəzərdə tutulur.Eyni zamanda Fondun bugünə qədər alınmış qızıl ehtiyatlarından əlavə gəlirliliyin əldə edilməsi məqsədilə, həmin ehtiyatların bir hissəsi hal-hazırda beynəlxalq maliyyə bazarlarında fəaliyyət göstərən nüfuzlu banklarda qısamüddətli depozitlərdə yerləşdirilmişdir."

Digər investisiyalardan danışan İcraçı direktor bildirib ki, Fond ilkin mərhələdə Avropa və Asiyanın mərkəzi şəhərlərində yerləşən ofis tipli daşınmaz əmlaka investisiya etməyi planlaşdırır. Bu məqsədlə ARDNF-nin əməkdaşları London, Paris, Moskva, İstanbul şəhərlərinə gedərək müxtəlif daşınmaz əmlak şirkətləri ilə görüşlər keçiriblər. Hazırda Sinqapur, Malayziya, İndoneziya kimi ölkələrin mərkəzi şəhərlərində də müxtəlif daşınmaz əmlak obyektləri nəzərdən keçirilir.

Bundan əlavə, iyul ayında ARDNF tərəfindən 800 milyon Türkiyə lirəsi (TRY) alınaraq Türkiyənin yerli banklarında qısamüddətli depozitlərə yerləşdirilib. Yaxın gələcəkdə Fondun investisiya portfelində Türkiyə lirəsinin daha da artırılması nəzərdə tutulur. Növbəti mərhələdə həmçinin Türkiyə lirəsində olan qiymətli kağızlara investisiyalar planlaşdırılır. Yaxın vaxtlarda Rusiya rublunun da alınmasına başlanacaq.İyulda həmçinin Fond tərəfindən 200 milyon Avstraliya dolları alınaraq Avstraliyanın dövlət istiqrazlarına investisiya edilib.

Səhmlərə investisiyanı Fond xarici menecerlər vasitəsilə həyata keçirəcək. Bu məqsədlə xidmət təklifləri sorğusu üsulu ilə iki şirkət - UBS Global Asset Management, State Street Global Advisors xarici menecer kimi seçilib.

# Semi annual incomes-expenditures and investments of State Oil Fund disclosed

**The first half of current 2012 year, the budget incomes of the State Oil Fund(SOFAZ) comprised 7 391,9 million manats, and budget expenses 4 878,1million manats. Executive director of the fund, Mr.Shahmar Movsumov in his release on the sums of the month, noted that 7 099,8 million manats of incomes(including, from sale of profit oil and gas - 7 091,4 million manats, transit revenues - 3,8 million manats, bonus payments 1,6 million manats, acre payments- 2,8 million manats, from asstes submitted by the foreign investors - 0,2 million manats) were from the implementation of oil and gas contracts. During the reporting period, 292,1 million manats more were received from the management of funds of the State Oil Fund.**

As regards the expenses, 4 592,3 million manats have been transferred to the state budget in the first mid-year. Besides, 162,5 million manats have been allocated for funding the measures for improving the social state and settlement of refugees and internally displaced persons, 67,0 million manats for reconstruction of Samur-Absheron irrigations cheme, 37,0 million manats for funding"Baku-Tbilisi-Kars new rail way" project, 5,0 million manats for funding the "State Program for Study of Azerbaijani Youth abroad in 2007-2015 years". The expenses of the State Oil Fund for its management in the first midyear comprised 14,3 million manats. Extraordinary expense of the Fund because of the variance from the currency rates in 6 months was 289,2 million manats.

On July 01, 2012, the funds of SOFAZ increasing 9,6% compared with the early 2012 year (29 800,0 million US dollars) equalled to 32 666,0 million US dollars.

With the presidential decree dated July 02, 2012, the 2012 budget of SOFAZ was made changes.The decree increased the income item for the net incomes raised from the sale of hydrcarbons of Azerbaijan in 2012 budget of SOFAZ from 10 365 432,0 thousand manats to13 388 644,0 thousand manats, and the total budget incomes of SOFAZ for 2012 increased from 10 697 030,6 thousand manats to 13 721 815,2 thousand manats, and income sitemin the amount of 1 572,6 thousand manats was added with regard to the bonuses paid by the investors with regard to the signing and implementing oil-gas contracts.

Shahmar Movsumov also gave information on the investment policy of SOFAZ in the reporting period. He noted that according to the "main directions of the use of SOFAZ fund sin 2012" the limit of funds of SOFAZ that could be invested in gold this year had been fixed maximum in the rate of 5% of investment portfolio. It is scheduled to procure around 30 tons of gold with the sefunds: "For the purpose of minimizing the risk of ratefluctuation, it isplanned to procure the planned volume of gold instages (inweeks) during 2 years to the portfolio of the fund. By this strategy, the cost of gold investments of the fund at the end of 2 years will equal to the average market rate of gold.The sale of gold has started from February this year. In order to implement procurement process, accounts have been opened with several partner banks, which are members to London Association of Valuables Market Participants, and 25 goldenbars (10 000 troyounces) will be procured in each week

from February 01, 2012. Before July 01, 6 847 kg(220 146 troyo unces) have been included in the gold portfolio. As a temporary storage, London store of Morgan Bank has been selected taking into account storage conditions and expenses. It isplanned to procure additionally 240 000 ounces (around 7,5 tons) of gold by the end of year. Sametime, for the purpose of gaining additional benefit from gold reserves procured so far, a part of those reserves have been settled in short-term deposits in influential banks actingin international financial market."

Speaking of the other investments, the executive director stated that the funds was planning to invest in office-type immovables located in big cities of Europe and Asia. To this end, the representatives of SOFAZ conducted series of meetings with various real estate companies in London, Paris, Moscow, Istanbul. At present, various immovables in big cities of Singapore, Malaysia, Indonesia are being considered.

Further more, SOFAZ in July purchased 800 million Turkish liras and deposited for short term inlocal banks of Turkey. It isplanned to expand the portion of Turkish lira in SOFAZ portfolio in near future. In the next stage, investments are planned in securities inTurkish lira too. Near future, Russian roubles will also be procured too. In July, SOFAZ procuring 200 million US dollars invested in state loans of Australia.

SOFAZ will investin share sthrough foreign managers. For this purpose, two companies - UBS Global Asset Management and State Street Global Advisors have been selected as foreign managers by quotation of service bidding.

## Daha bir ABŞ şirkəti "Əsrin müqaviləsi"ndən çıxır

**ABŞ-ın "Hess" şirkəti "Azəri-Çıraq-Günəşli (AÇQ) neft yatağının işlənməsi" layihəsindəki 2.72 faizlik, Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri layihəsindəki olan 2.36 faizlik payını Hindistanın ONGC şirkətinə satıb.**

Trend-in şirkətin saytına istinadən verdiyi məlumata görə, razılaşmanın həcmi 1 milyard dollar qiymətləndirilir. Şirkət razılaşmanı 2013-cü ilin ilk rübünün sonuna qədər bitirməyi planlaşdırır. "Hess" korporasiyasının kəşfiyyat və hasilat şöbəsinin prezidenti Qreq Hill bu addımın "şirkətin kiçik faizli aktivlərindən azad olma planına uyğun" olduğunu deyib.

Qeyd edək ki, 2012-ci ildə AÇQ-də əməliyyat xərcləri 708 milyon dollar, əsaslı xərclər isə 2,516 milyard dollar həcmində proqnozlaşdırılır.

## Another US company leaves "Treaty of the century"

**The US company"Hess"soldits 2.72% shareinoperation of "Azeri-Chirag-Gunashly (ACG) oilfield" and 2.36% shareinBaku-Tbilisi-Jeyhan (BTC)oilpipelineprojecttoIndianONGC company.**

According to Trend agency refering to the company web-page, the amount of the agreement is valued around 1 billion US dollars. The company is planning to end the agreement by the end of the first quarter of 2013.The president of "Hess" corporation operation and production unit, Graig Hill said that it had happened in accordance with the "plan of company on being released from small percentage assets".

So, operation costs in ACG in 2012 are expected in the amount of 708 million US dollars, capitalcosts in 2,516 billion US dollars.






http://www.eiti-az.org